UOT 902

TÖHVƏ HÜSEYNOVA
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun dosenti,
tarix üzrə fəlsəfə doktoru
nuray-fuadqizi@mail.ru

QAFQAZ ALBANİYASININ NÜYDİ VƏ QIRLARTƏPƏ ABİDƏLƏRİNDƏN TAPILMIŞ KERAMİKA MƏMULATI HAQQINDA (AĞSU RAYONU)

DOI: https://doi.org/10.36719/2708-065X/107/270-274

Qədim Qafqaz Albaniyasının iqtisadi, mədəni və siyasi həyatını öyrənmək üçün arxeoloji tədqiqat işləri nəticəsində əldə edilmiş maddi-mədəniyyət qalıqları ən qiymətli mənbələrdən biridir. Aşkar olunmuş tapıntılar öz dövrünün istehsal vasitələri və istehsal münasibətlərini müəyyənləşdirməyə kömək edir. Uzun illər ərzində Ağsu rayonu ərazisindəki qədim abidələrdə aparılmış arxeoloji qazıntı işləri nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri müxtəlif olmaqla yanaşı, fərqli funksiyalar daşıyır. Bu məqalədə bəzi keramika məmulatları haqqında məlumat verilir.

Açar sözlər: Qafqaz Albaniyası, təsərrüfat həyatı, keramika, Qırlartəpə, Nüydi.

Giriş. Antik çağın bir çox xalqlarında olduğu kimi albanların da məişətində saxsı məmulatları xüsusi yer tutmuşdur. Bu qəbildən Ağsu rayonu ərazisində aparılmış arxeoloji tədqiqat işləri nəticəsində əldə edilmiş tapıntıların böyük əksəriyyətini məhz keramika məmulatları təşkil edir. Müraciət etdiyimiz möhtəşəm Nüydi və Qirlartəpə yaşayış yeri və qəbir abidələrindən tapılmış keramika nümunələri çoxçeşidliliyi və zənginliyi ilə diqqət cəlb edir. Keramika nümunələri müxtəlif növlüdür. Bunlardan təsərrüfat küpləri, süddan biçimli qablar, badya və camlar, dolçalar və bardaqlar, qazan tipli saxsı qablar, gil çıraqlar və digərlərini qeyd etmək olar.

Təsərrüfat küpləri orta və iri həcmli hazırlanmışdır. İri həcmli təsərrüfat küplərinə ən çox yaşayış yerlərində rast gəlinir. Bu küplər əsas etibarı ilə binaların içərisində və yaxınlığında yerə basdırılmışdır. Onların çoxu uzun müddət torpağın altında olduğundan ya sınmış, ya da yararsız vəziyyətə düşmüşdür. Küplərin əksəriyyəti qırmızı rəngdə olub Nüydi yaşayış yerindən aşkar edilmiş təsərrüfat küplərinin bir neçəsi daha iri olmuşdur. Həmin küplər də qirmızı rəngdə olub , üzəri saya, ağzının qıraqları kənara doğru çıxıntılı düzəldilmişdir. Belə iri küplər çox güman ki, anbar vəzifəsini daşımışdır. Onların bəzilərinin çiyin hissəsində əkinçiliklə əlaqədar olan işarələrə də təsadüf edilmişdir(1, s.9-10). Bu işarələr yaşayış yeri sakinlərinin əkinçiliklə məşğul olmaqları haqqında təsəvvürü genişləndirməklə yanaşı, həmin küplərin bilavasitə taxıl saxlanması üçün istifadə edilməsinə işarədir. Buradan böyük küplərlə yanaşı nisbətən kiçik küplərdə aşkar edilmişdir. Bu küplər enli boğazlı və qabarıq gövdəlidir. Gövdənin ortasında iki tərəfdən dairəvi qulpları vardır. Qırmızımtıl rəngdə olan bu küplərin üçqulplulları da vardır.

Nüydi torpaq qəbirlərindən tapılmış orta həcmli küplərin əksəriyyəti boz rəngli, orta tutumlu, uzunsov formalı olaraq, boğazı nisbətən enli, gövdəsi isə qabarıqdır. Onun çiyin hissəsində tək bir yerdə dairəvi qulpu vardır. Ola bilsin ki, maye, un, quru meyvə, yağ və s. saxlamaq üçün nəzərdə tutulan belə küplər eyni funksiya üçün qəbirlərə də qoyulmuşdur.

Antik dövrə aid Qırlartəpə abidəsindən tapılmış təsərrüfat küpləri daha çox diqqət cəlb edir. Arxeoloji qazıntılar zamanı istər yaşayış yerləri, istərsə də qəbir abidələrindən xeyli miqdarda təsərrüfat küplərinin ya qırıqlarına, ya da bütövlərinə təsadüf olunmuşdur. İri təsərrüfat küplərinin bəzilərinin içərisində yanıb kömürləşmiş buğda qalıqları tapılmışdır. Qırlartəpə yaşayış yerindən tapılmış təsərrüfat küplərinin bir neçəsi daha maraqlıdır. Bu küplərin bəziləri enli ağız şiş gövdəli, oturacağı nisbətən şiş düzəldilmişdir. Küpün ağzı yastı daşla örtülü olmuşdur. İşərisində maye, ərzaq saxlandığı bilinir (2, s.3-4).

Süddan biçimli qablar. Qədim Alban mədəniyyəti üçün ən səciyyəvi gil məmulatlarıdır. Bu qablar duluzçuluq sənətinin incilərini özündə əks etdirmişdir. Süddan biçimli qablar ilk dəfə Yaloylutəpədə tapılmışdır. Qafqaz Albaniyası ərazisində aparılmış arxeoloji tədqiqat işləri nəticəsində aş-

kara çıxarılmış bu tip qablar bunu bir daha sübut etmişdir. Bu baxımdan Qafqaz Albaniyasının mərkəzi hissələrindən sayılan Ağsu rayonu ərazisində aparılmış arxeoloji qazıntı işləri bu qabların həmin ərazidə daha geniş yayıldığını göstərir (3, s.77-78). Bu tip qablara ən çox küp və təknə qəbirlərdə təsadüf olunmuşdur. Süddanların üzərinin işlənməsində əksərən boz gil məhlulundan istifadə edilmişdir. Qablar sarımtıl, çəhrayı rəngdə bişirilmişdir.

Dulusçuluqda xüsusən əldə hazırlanmış gil istehsalında qabın öz gilindən əlavə ağ gil seçilir və ondan həmin qabın əsas gilinin tərkibinə qatılır. Həm də ondan ayrıca məhlul hazırlayıb məmulatın bəzisini anqoblayırlar (4, s.103-104). Antik dövr gil məmulatlarının anqoblanmasında əsasən məsamələri örtmək, həm də qabın rəngini dəyişmək üsulu nisbətən üstünkük təşkil edir.

Nüydidən tapılmış süddan tipli qablar qonşu abidələrdən tapılan həmin tip qablardan zərifliyi, simmetrikliyi, yaxşı bişirilməsi, habelə həcmləri etibarı ilə bir-birindən çox az fərqlənirlər. Bu tip qablar süd, şərab, ümumiyyətlə içki üçün istifadə olunduğunu ehtimal etmək olar. Əsasən oturaq əkinçiliklə məşğul olan əhalinin məişəti üçün səciyyəvidir. Kiçik ölçüdə hazırlanmış bu qabların gövdəsi şişkin, yaxud şarşəkillidir. Bu qablar dabanlı və dabansız düzəldilmişdir. Belə qabların ağız hissəsi daha maraqlı şəkildə hazırlanmışdır. Qabın novçavarı çıxıntısı bir növ ördək dimdiyini xatırladır. Nüydi gil qabların özündən əvvəlkinə nisbətən kobudlaşması artıq eramızın əvvəllərindən qab istehsalında şüşə və metal qabların yaranıb genişlənməsi və məişətə daxil olması ilə də əlaqələndirmək olar.

Qırlartəpə qazıntıları zamanı yaşayış yeri və qəbir abidələrindən tapılmış süddan biçimli qablar öz zərifliyi, keyfiyyəti, estetik çalarları baxımından digər abidələrdən tapılmış süddanlardan fərqlənirlər. Belə qabların əksəriyyəti xüsusi gildən yüksək keyfiyyətlə hazırlanmışdır. Çoxlarının üzəri ağımtıl məhlulla örtülmüş olur. Bu qablar antik dövr abidələri üçün tam səciyyə daşıyır və Azərbaycanın qədim tarixi üçün olduqca əhəmiyyətlidir (5, s.8-9).

Badya və camlar. Nüydidə aparılmış arxeoloji tədqiqat işləri zamanı aşkar olunmuş badya və camların əksəriyyəti torpaq qəbirlərdən tapılmışdır. Qırmızı rəngdə olan bu qablar qulpsuz, tək qulplu və iki qulplu olmuşdur. Onların ağzı dairəvi formada olub, gövdəsi bir qədər şişkin, oturacaqları isə düzdür; ağzının kənarı düz, əsasən xaricə doğru əyilmiş şəkildə hazırlanmışdır. Bu qabların əksəriyyəti odun təsirindən qaralmışdır. Nüydi qazıntılarından tapılmış əksər gil qablar kimi bunlar da əl ilə kobud hazırlanmışdır. Qirmizi gildən əl ilə hazırlanmış badya formalı qablar ilk dəfə Azərbaycan ərazisində E.Relslerin qazıntıları zamanı aşkar edilmişdir. Dövlət Ermitajının Qafqaz şöbəsində saxlanılan həmin qablar e.ə III eramızın III əsrlərinə aid edilmişdir (6). Belə qablar Nüydi arxeoloji abidələri üçün xarakterik səciyyə daşıyır.

Çölməklər. Nüydi yaşayış yeri sakinlərinin ən xarakterik keramika məmulatlarından olan çölməklər nisbətən iri həcmli olub, qırmızı rəngdədir. Çölməklər əsasən ikiqulplu olmuşdur. Bu qablar bir növ sərnicə də oxşayırlar. Məhz çölməklər maldarlıqla əlaqədar sərnic funksiyasını da ifa etmişdir. Cam və badyaların fərqli formaları Qırlartəpə qəbir abidəsi və yaşayış yerlərindən xeyli miqdarda tapılmışdır. Onların ağzının kənarı içəriyə doğru əyilmiş formada olub, düz oturacağa malikdir. Bu saxsı qabların xaricindən ağzının kənarına yaxın üfüqi şəkildə yapışdırılmış qulpları vardır. Qırmızı rəngdədir. Qulpların üstündən barmaq işlədilmək üçün deşik açılmışdır. Bəzi hallarda qulpların üstü müxtəlif naxışlarla bəzədilmişdir. Bəzəklərin müxtəlifliyi burada duluzçuların zəngin yaradıcılığının məhsulu kimi qeyd etmək olar. Buna baxmayaraq bu qabların əksəriyyətinin üzərində heç bir naxışlama işləri görülməmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi Qırlartəpə abidəsindən tapılmış cam və badyaların fərqli formalarına tez-tez rast gəlinmişdir (7, s.15-16). Qulpu dərin camlar, nazik divarlı camlar, çiynində lentşəkilli qulpu olan badyalar və s. Belə cam və badyaların bir çoxu eramızın əvvəllərinə aid yaşayış yerlərindən tapılmış və məişətdə geniş yayılmışdır. Qazıntılar zamanı Qırlartəpə yaxınlığındakı nekropoldan mis və gümüş camlara da rast gəlinmişdir. Belə çox təbəqəli abidənin öyrənilməsi Azərbaycan tarixinin tədqiqi sahəsində xüsusi əhəmiyyət kəsb edir.

Dolçalar və bardaqlar. Bu cür qablar əsasən qara, qırmızı və sarımtıl rəngli gildən əllə hazırlanmış, gövdələri bir qədər şişkin, boğazı enli, çiyni ilə ağzının kənarını birləşdirən və çiynində halqavarı düzəldilən tək qulpları vardır. Bu qabların müxtəlif formaları Nüydi torpaq qəbirlərindən xeyli tapılmışdır. Nüydidən tapılmış dolçaların bəzilərinin üzəri sayadır. Onların nehrə qulpuna oxşar qulpu, gövdəsində isə iki məməciyi olanlarına da təsadüf edilmişdir. Üzərinə qırmızı rəng çəkilənləri də

vardır. Nüydi torpaq qəbirlərindən tapılmış dolça növlərindən biri daha çox diqqət cəlb etmişdir. Bu qablar gövdəli və üçayaqlı düzəldilmişdir. Ayaqları qısa, altı sferik formada olub, boğazı silindrik və enlidir. Belə dolça növü Nüydi, eləcə də bütün tədqiqat rayonundan tapılan yeganə nümunədir (7, s.2).

Görkəmli alim Fazil Osmanov Sultankənddən tapılmış eyni adlı bir dolçanın təsvirini öz kitabında vermiş və maraqlı fikirlər söyləmişdir. Bu qabın qulpunun çiyin hissəsinə yapışdırılmış istiqamətində bərabər məsafədə üç yerdə basılmış çökəklərin ətrafında, günəş şüasını xatırladan düz xətlər çəkilmişdir. Bu qabın rənglənməsi və çiynində düz xətlər çəkilməsi, günəş təsvirinin verilməsi, onu müəyyən dini etiqadla əlaqədar olaraq hazırlandığını bildirir. Çox güman ki, sənətkar burada günəşi həyatın mühüm amili göstərməyə çalışmışdır. Araşdırdığımız ərazidən tapılmış bu qabların üzərində bəzək olmamışdır. Bu da həmin qabların yalnız gündəlik tələbat üçün hazırlandığını bildirir. Bu qablar da digərləri kimi əllə hazırlanmışdır (9, s.82-83).

Nüydi qazıntılarından tapılmış müxtəlif formalı və həcmli bardaqlar əsasən şargövdəli və düz oturacaqlı olub, yalnız ağız hissəsinin formaları ilə seçilir. Bu tip qablar Qafqaz Albaniyasının əksər abidələrində aşkar edilmişdir.

Qırlartəpədə aparılmış arxeoloji qazıntılar zamanı rast gəlinmiş dolça və bardaqlar daha maraqlıdır. Tapılmış dolça nümunələrindən düz oturacaqlı, ağzı üçgül, arxadan tək qulpu çiynidə ağzının kənarına yapışdırılmış formada olanları, ağzı üçgül tək qulp lüləkli saxsı dolçalar və Qırlartəpə ilə kənd yeri arasındakı nekropoldan bir neçə iri dolça növləri də tapılmışdır.

Belə qabların formasındakı dəyişiklikləri müxtəlif istifadə məqsədini və gil qab istehsalında inkişaf prosesini göstərən amillərin biri kimi qeyd etmək olar. Deməli dolçalar, bardaqlar və dopular tipinə aid olan qablar da daha çox mətbəx keramikasına aid edilə bilər.

Qazan tipli saxsı qablar. Bu cür saxsı qab nümunələri araşdırdığımız ərazilərdəki qədim abidələrdə rast gəlinmişdir Məqalədə müraciət etdiyimiz Nüydi və Qirlartəpə abidələrinin nekropolundan arxeoloji tədqiqat işləri zamanı qazan tipli qabların qırıq və bütövləri daha çox aşkar edilmişdir (2,s.16). Əsasən Qırlartəpə abidəsindən tapılan belə qablar ölçüsünə, qalınlığına, keyfiyyətinə görə müxtəlif olmaqla yanaşı daşıdığı vəzifə və formalarına görə də bir-birindən fərqlənirlər. Bu tip qablar qalın divarlı, ağzı xaricə doğru azca əyilmiş formadadır. Üzəri şüyrələnib hamarlanmış qazan tipli qabların əksəriyyətinin qulpları üfüqi şəkildədir. Od üzərində istifadə edildiyindən qaralmışdır. Aşkar edilmiş qazan nümunələrinin bütövlərinin içərisində heyvan sümükləri olmuşdur. Dairəvi formada hazırlanmış gil qazanların oturacaqları daha qalın, kənarı isə nisbətən nazikdir. Bunların əksəriyyəti bozumtul rəngdədir. Qazan tipli qablar çox vaxt "gil tava" adı ilə də adlanır. Əksəriyyətinin xarici hissəsi yanmış şəkildə olan qazan tipli qabların gilinə iri və xırda qum qarışdırılmışdır. Sözsüz ki, bu qabların mətbəxdə işlədildiyindən sənətkarlar oda davamlı olması üçün bu üsuldan istifadə etmişlər. Bu qabların oturacaq hissəsi daha qalın hazırlanmış və əksəriyyətinin əllə tutmaq üçün qulpları vardır. Araşdırdığımız ərazidən tapılmış qazan tipli saxsı qabların oxşar nümunələri Qafqaz Albaniyasının digər abidələrindən də tapılmışdır.

Gil çıraqlar. Mənzillərin işıqlandırılmasında müxtəlif dövrlərdə müxtəlif növ çıraqlardan istifadə edilmişdir. Antik dövrə aid çıraqlardan istifadə haqqında az məlumat olsada həmin dövrdə tək ayaq və üç ayaqlı vazalar və bu kimi qablardan şamdan kimi istifadə olunduğu bilinir. Bunu tədqiqat ərazisində aparılmış arxeoloji qazıntılar bir daha sübut etmişdir. Yəni bilavasitə çıraq kimi istifadə edilmiş qablar Nüydi, Qırlartəpə və digər abidələrdən xeyli tapılmışdır (9, s. 17-18). E.ə. II-I və eramızın əvvəllərinə aid olan bu çıraqların irəliyə doğru uzanan dar, uzunsov novçası vardır ki, onların bu hissəsi hisdən qaralmışdır. Bunların ağzı örtülməklə müəyyən yanacaq növlərindən, çox güman ki, neft məhsullarından istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı Qırlartəpədən tapılmış qısa lüləkli çıraq və onun yanındakı qabdan aşkar edilən qatran qalığı bunu bir daha təsdiqləyir. Əsasən qırmızı rəngdə olan çıraqların boz rəngdə olanlarınada rast gəlinmişdir. Belə çıraqlarda lülək çox qısa olaraq ucu dik dayanır. Bu isə onun içərisindəki yanacağın maye halında olmasına əsas verir. Tapılmış hissələrdən bilinir ki, onun gövdəsi dəyirmi olmuşdur. Qulpunun olub-olmaması məlum deyildir.

Arxeoloji qazıntılar zamanı Mingəçevir küp qəbirlərindən tapılmış çıraq nümunələri əvvəlki dövrlərə aid tapılmış çıraq nümunələrindən forma baxımından xeyli fərqlənmişlər. Bu çıraqlarda yağ yandırıldığı ehtimal edilir (9 ,s.12). İkimərtəbəli düzəldilmiş bu çıraqların üst hissəsində qulp vardır. Həmin qulp vasitəsi ilə çırağı divar və ağacdan asmaq mümkündür. Müəyyən məlumatlara görə keç-

mişdə Kür qırağında çıraqları yandırmaq üçün ən çox balıq yağından, əsasən ilan balığından istifadə etmişlər.

Nəticə. Ağsu rayonunda yerləşən Nyüdi, Qırlartəpə arxeoloji qazıntılarından aşkar edilən keramika məmulatları öz unikallığı, hazırlanma texnologiyasının dəqiqliyi, forma və funksional baxımından müxtəlifliyi ilə Albaniyanın digər eynidövr abidələrindən kəskin fərqlənməsə də, müəyyən elementləri ilə mükəmməldirlər. Araşdırmanın nəticəsi olaraq qeyd etmək lazımdır ki, yaşayış yerinin əhalisi saxsı artefaktları uzun müddət istifadə etmişlər. Bu qabların əksəriyyəti bütöv şəkildə günümüzə gəlib çatmasa da, onların dəqiq atribusiyası çətinlik yaratmır.

ƏDƏBİYYAT

1. Osmanov F.L. Ağsu rayonunun Nüydi kəndində 1965-ci il arxeoloji kəşfiyyat qazıntısının hesabatı. Bakı, 1965, 18 s.
2. Osmanov F.L. Q.C.Cəbiyev. 1986-cı il Ağsu - İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1986, 21 s.
3. Osmanov F. L. Qafqaz Albaniyasının maddi mədəniyyəti: e.ə. IV və b.e. III əsrləri. Bakı," Elm", 1982, 160 s.
4. Göyüşov R.B. Dulusçuluq sənətində gil qabların anqoblanması üsulu haqqında. Azərbaycanın Maddi Mədəniyyəti. IV cild. Bakı, "Elm", 1965, s.23-36.
5. Osmanov F.L., Cəbiyev Q.C., S.B.Hüseynova. 1988-ci il Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1988, 25 s.
6. Dövlət Ermitajı, Qafqaz şöbəsi №K3 6233-6235.
7. Osmanov F.L., Cəbiyev Q.C. 1986-cı il il Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1986 , 22 s.
8. Hüseynova T.T. Ağsu rayonunun antik dövr arxeoloji abidələri. Bakı,"Nafta Press", 2006, 135 s.
9. Qazıyev S.M. Mingəçevir arxeoloji tədqiqatları. Küp qəbirləri albomu. Bakı, "Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı", 1960, 118 s.

ТОВХА ГУСЕЙНОВА
Доцент Института Археологии и Антропологии НАНА

О КЕРАМИКЕ, НАЙДЕННОЙ В ПАМЯТНИКАХ НЮЙДИ И ГЫРЛАРТЕПЕ КАВКАЗСКОЙ АЛБАНИИ (АГСУИНСКИЙ РАЙОН)

В статье сообщается о керамических изделиях памятников Нюйди и Гырлартепе, древних памятниках Аксуинского района, который был одним из центральных областей Кавказской Албании. Автор рассматривает предметы материальной культуры из археологических исследований в качестве ценного источника для изучение культурно-экономической и политической жизни Кавказской Албании, важной части культуры Азербайджана. В статье указывается на особую роль керамических изделий в быту албанцев. Подчеркивая богатство и многотипность керамических образцов из поселений и погребальных памятников Нюйди и Гырлартепе, имеются широкие сведения о керамике, отражающей в себе все тонкости гончарного ремесла.

Ключевые слова: Кавказская Албания, хозяйственная жизнь, керамика, Гырлартепе, Нюйди.

TOVKHA HUSEYNOVA
Docent of the Institute of Archeology and Anthropology of National Academy of Sciences of Azerbaijan

ABOUT THE CERAMICS FOUND IN NUYDI AND KIRRTAPE MONUMENTS OF CAUCASIAN ALBANIA (AGHSU DISTRICT)

The article provides information about the ceramic products found in the ancient monuments of Nuyudu and Kırlartapa in Agsu region, ühich are considered to be central parts of Caucasian Alba-

nia. The author states that material cultural remains obtained as a result of archaeological research are avaluable resource for studing the economic, cultural and political life of Caucasian Albania and points out that they are an important part of Azerbaijan culture.

İn the article says that ceramic products occupy a special place in the lives of Albanians, as in other nations. The article drew attention to the diversity and richess of ceramic samples found in the grave monuments of Nuyudu and Kırlartapa settlement and gave extensive information about the ceramic products that reflect the pearls of the art of pottery.

Keywords: Caucasian Albania, farm life, ceramica, Kırlartapa, Nuydu

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Qənirə Pirquliyeva, t.e.d. Əmrah Dadaşov.